*Nizamişünaslıq 11, №2, 2024, səh. 59-68*

https://doi.org/10.59849/3006-2403.2024.2.59

***İlhamə MƏMMƏDOVA***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu***
***E-mail: ilhama.mamedova72@gmail.com***
***https://orcid.org/0009-0001-4118-8893***

# NİZAMİNİN "XƏMSƏ"SİNDƏ KAMİL İNSAN OBRAZI

*Açar sözlər:* Nizami, Xəmsə, məsnəvi, nət, peyğəmbər, Məhəmməd

*Giriş.* Nizami Gəncəvinin "Xəmsə"sində insanın yaranışı, yaranışının məqsədi, həyatdakı missiyası və digər məsələlərlə bağlı çoxlu irfani-fəlsəfi fikirlər mövcuddur. Digər müəlliflər kimi dahi şairimiz də öz qəhrəmanını ən kamil bir insan simasında təqdim etməyə çalışmış və insanın bu məqama çatması üçün xüsusi yollar təqdim etmişdir. Nizami Gəncəvinin kamil insan obrazı təbii ki, islam peyğəmbəri Məhəmməddir ki, məsnəvilərində onun haqqında həm nətlər, həm də meracına həsr olunmuş şeirlər vardır. Hər bir məsnəvidə peyğəmbər haqqında yazılan nətdə Nizaminin "kamil insan" obrazının xüsusiyyətləri sadalanır.

Bu məqalədə "Xəmsə"yə daxil olan məsnəvilərdə nətlər haqqında araşdırma aparmaqla "kamil insan" konsepsiyasının əsaslarının Nizami Gəncəvi tərəfindən tətbiqini tədqiq etməyə çalışmışıq.

*Məqalə 1.* Nizami Gəncəvi öz məsnəvilərində insan və onun həqiqətinə xüsusi diqqət yetirir. İnsan haqqında onun fikirlərini üç istiqamətdə araşdırmaq olar: birinci insana bəşəriyyətin ilk nümayəndəsi və atası Əbülbəşər Adəm olaraq baxır; ikincisi insana "torpaqdan yaranmış zəif varlıq" və eyni zamanda məxluqların əşrəfi kimi tanıtdırır; üçüncüsü isə insana "kamil insan və insanlığın həqiqəti" kimi yanaşır. Kamil insan olaraq islam Peyğəmbərini təqdim edir.

Nizami "Xosrov və Şirin"də möbədin dilindən deyir ki, cin və pərilərin yaranışından sonra Adəm yer üzünün sonuncu övladı idi:

جهان را اولین بطنی زمی بود/زمین را آخرین بطن آدمی بود[6, 101]

Dünyanın birinci bətni yer idi/ Yerin sonuncu bətni Adəm idi.

Şair insanı torpaqdan yaranmış varlıq kimi belə təqdim edir:

ای همه هستی ز تو پیدا شده/ خاک ضعیف از تو توانا شده[5, 2]

Ey bütün varlıq Səndən yaranmış / Zəif torpaq Səndən güc almış.

Nizaminin əsərlərində üçüncü baxış da vardır ki, bu da "kamil insan" məsələsidir. Düzdür onun əsərlərində "kamil insan" ifadəsi olduğu kimi işlənməsə də, onun xüsusiyyətlərini özündə cəmləşdirən bir qəhrəman vardır. Bəziləri bu fikirdədirlər ki, ilk dəfə kamil insan sözünü Muhyiddin ibn Ərəbi şeir və ədəbiyyata daxil etmişdir. Ondan əvvəl irfan ədəbiyyatında belə bir istilah işlədilmirdi. Amma Nizamidən əvvəl yaşamış bir çox sufilərin dilində bu istilah olduğu kimi işlənməsə də, onun anlamını verən sözlərə rast gəlinmişdir. Həllac Mənsur öz əsərlərində kamal dərəcələrini keçmiş insan haqqında danışmış və özünü də belə bir məqama nail olan salik saymışdır. Məlumdur ki, sonda da bu yolda öz canından keçmişdir. Həllac peyğəmbərin ان الله خلق آدم علی صورته – "Həqiqətən Allah Adəmi öz surətində yaratdı" hədisinə istinad edərək insanın maddi və hissi xüsusiyyətlərdən savayı ilahi xarakterini də qeyd etmişdir. Beləliklə o bildirir ki, insan varlıq aləmində ilahi surətə malik olan yeganə varlıqdır. Həllacdan sonra Bəyazid Bistami də insan haqqında "əl-Kamilüt-təmam" ("Sözün tam mənasında kamil") ifadəsini işlətmişdir.

2. “Kamil insan” konsepsiyası haqqında çox ariflər fikir bildirmiş, öz əsərlərində onu izah etməyə çalışmışlar.

Biz burada həmin konsepsiyanın əsasını təşkil edən bir neçə müddəaları qeyd etmək istəyirik.

1.Dünyanın yaranışının əsas məqsədi kamil insandır. Əgər kamil insan olmasaydı, yaranış da olmazdı.

2.Kamil insan ilahi zat üçün bir ayna kimi yaradılmışdır ki, ilahi zat kamil insanın zatında görünsün. Çünki Allah qüdsi hədisə əsasən özünün tanınmasını istəmişdir.

كنت كنزا مخفيا فاحببت ان اعرف

“Gizlin xəzinə idim tanınmağımı istədim”. Buna görə kamil insan aynasını yaratdı ki, özünü onda görsün.

3. Allah aləmi cism kimi yaradıb kamil insanı yaratmaqla o aləmə ruhunu üfürdü və “kamil insan” ruh kimi aləmin cismindədir.

4. Ariflər bu fikirdədirlər ki, ilahi zatın aynası ola bilən yeganə “kamil insan” Məhəmməd peyğəmbərdir. "لولاك لما خلقت افلاك" “Sən olmasaydın, fələkləri yaratmazdım” məşhur hədisinə görə aləmin yaranmasından əsas məqsəd Məhəmməd peyğəmbərdir.

5. "اول ما خلق الله نوري" - “Allahın yaratdığı ilk şey mənim nurumdur” hədisinə görə o həzrət yaranışın bütün dövrlərində ən kamil insan olmuşdur.

6. Peyğəmbər yuxarıdakı hədisə əsasən Allahın ilk yaratdığı varlıq olduğuna görə onun ruhu bütün aləmə üfürülmüşdür. Ariflər bu fikirdədirlər ki, aləmin ruhu olan “kamil insan”ın aləmdə hər bir şeyə əhatəsi vardır. Bu fikrə Muhyiddin Ərəbinin və Cami kimi ardıcıllarının əsərlərində rast gəlmək olar.

7. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, kamil insan” “Məhəmmədiyyə həqiqətinin” eynidir.

8. “Məhəmmədiyyə həqiqət”inin açıqlanması üçün “cism üçün can”, “mərkəz üçün qütb”, “ayna”, “nur”, “parıltı”, “şam”, “çıraq”, “günəş”, “ay” bənzətmələrindən istifadə olunmuşdur. Ariflər digər varlıqların “Nur-e Məhəmmədi”dən olduğunu qeyd edirlər.

Nizami Gəncəvinin “Xəmsə”sində kamil insan obrazı haqqında hərtərəfli məlumat almaq üçün nətlərin araşdırılmasını məqsədəuyğun saymaq olar. İlk növbədə isə məsnəvilərdə olan nətlərin sayına diqqət yetirək:

“Sirlər xəzinəsi”ndə 5 nət (birinci nət 25 beyt, ikinci nət 23 beyt, üçüncü nət 33 beyt, dördüncü nət 27 beyt, beşinci nət 41 beytdən ibarətdir), “Xosrov və Şirin”də 33 beytlik bir nət, “Leyli və Məcnun”da 109 beytlik bir nət, “Həft peykər”də 33 betlik bir nət, “Şərəfnamə”də 25 beyt, “Xirədnamə”də isə 28 beytlik nətlər yazılmışdır.

İndi isə Peyğəmbərin vəsfində yazılan “nət” sözünün izahına diqqət yetirək:

Əli Əkbər Dehxoda «Lüğətnamə»sində iki növ nətin şeirdə işləndiyini göstərmişdir. Birinci mənada sifət (xasiyyət), nişan, nişanə, vəsf və tövsif (sifət və xarakterləri təsvir və tərifləmə). [2,618] Bu növ nətə aid Məsud Səd Salman, Əmir Müizzi, Mənuçehri, Sədi və başqa şairlərin əsərlərindən misallar verilir. Misalüçün:

تو بدين نعت و صفت گر بخرامی در باغ/ باغبان بيند و گويد که تو سرو چمن[2,618].

Sən bu nişan və xüsusiyyətlə əgər bağda gəzsən/Bağban görər və deyər ki, sən çəmənin sərvisən.

Nətin ikinci mənası «sitayiş, tərif, təhsin (gözəlləmə), mədh və sənadır; Allahın rəsuluna sitayiş və sənadır». [2,618]

Nizami Gəncəvi “Məxzənül-əsrar”ın birinci nətində hərflərin iştirakı ilə maraqlı beytlər yaratmışdır. Fikrimizi təsdiqləmək üçün nətin ilk iki beytinə nəzər salmaq kifayətdir.

تختهٔ اول که الف نقش بست/ بر در محجوبه احمد نشست

حلقهٔ حی را کالف اقلیم داد/ طوق ز دال و کمر از میم داد[5, 4]

Əlifinnəqş olunduğu ilk taxta (lövhə), /Əhmədingizliqapısındaoturdu,

Əlifiniqlim verdiyi «ha»nınhəlqəsi, /Dal hərfinəboyunbağı, mimə kəmərverdi.

Bu beytləri şərhsiz anlamaq çətindir, Nizami hərflərin şəkillərini dəyişərək kamala çatmasını Məhəmmədin vücuda gəlməsi ilə izah edir.

Əlif yazı lövhəsinin ilk hərfi olmaqla Əhməd (احمد) sözünün əvvəlində dayanmışdır. Əlif Allahın birliyinin rəmzidir. Əlif, yəni Allah «Ha»nın həlqəsinə «iqlim» - həyat verdi. «Mim» ilə «kəmər», «dal» (د) ilə isə boyunbağı verdi. «Dal» (boyunbağı) və «mim» (kəmər) itaət və bağlılıq rəmzidir. Yəni Məhəmmədin adlarından biri olan Əhməd (احمد). Allahın yanından göndərilmiş, ona bağlı və itaətkardır.

"Əhməd" sözünün tərkibində olan hərflərin belə izahı verilir:

همچو الف راست به عهد و وفا/ اول و آخر شده بر انبیا[5, 4]

Əhd və vəfada əlif kimi düzdür/Peyğəmbərlərin birincisi və sonuncusu olmuşdur.

Bu beytə əsasən demək olar ki, peyğəmbər zaman baxımından sonuncu olsa da, aləmə ilk olaraq onun ruhu üfürüldüyü üçün həm də peyğəmbərlərin sonuncusudur. Əlif düz hərf olduğu üçün və Peyğəmbərin adının yanında işləndiyinə görə əhdü vəfada düz və doğruluğuna işarədir. Buəlamətlərisənəbilərəxasxüsusiyyətlərdir.

لاجرم او یافت از آن میم و دال/ دایرۀ دولت و خط کمال[5, 4]

Nəhayət o həmin mim və dal (hərfindən)/Dövlət dairəsi və kamal xətti tapdı

Mim hərfinin yazılışında dairə olduğuna görə şair peyğəmbərin dövlət dairəsini mimin dairəsinə bənzətmişdir. Amma bu beytdə kamal xəttindən də bəhs olunur. Məlum olduğu kimi dairə müstəvinin çevrə ilə əhatə olunmuş hissəsidir. İki nöqtə arasında məsafəyə isə xətt deyilir. Beytdə kamal xəttindən bəhs olunur ki, مد خط کمال dedikdə xəttin sonsuzluğa qədər uzanmasından bəhs olunur. "Mim" və "dal" hərflərinin birləşməsindən "mədd"- uzanmaq yarandığı kimi şair qeyd edir ki, kamal xətti heç vaxt qırılmayan, əksinə daim davam edən xəttdir ki, bu da ancaq islam peyğəmbərinə müyəssər olmuşdur.

Göründüyü kimi, Nizami münacat və tovhiddən sonra ilk dəfə nətdə bədii rəmzlərdən istifadə edərək fikirlərini oxucuya çatdırır.

گوش جهان حلقه‌کش میم اوست/ خود دو جهان حلقۀ تسلیم اوست[5, 4]

Dünyanın qulağı onun «mim»inin həlqəsindədir, /İki dünya özü onun təslim həlqəsidir.

Həlqə itaətkarlıq anlamına gəlir. Yəni dünya və iki cahan ona müti bağlıdır.

شمع الهی ز دل افروخته/ درس ازل تا ابد آموخته

چشمۀ خورشید که محتاج اوست/ نیم هلال از شب معراج اوست[5, 4]

Ürəyindən ilahi bir şəm yandırıb, /Əzəliyyət dərsini sona kimi öyrənib.

Günəşin dairəsi ki, ona möhtacdır, /Onun merac gecəsindən yarım hilaldır.

Ürəkdə şam yandırmaq qəlbin gözü ilə ilahi sirləri mütaliə etmək və öyrənmək üçündür. «Əzəl dərsi» ilahi aləmdir və biliklər deməkdir. Bu aləmləri və bilikləri Məhəmməd qəlbinin gözü ilə bütünlüklə oxuyub öyrənmişdir. Günəşin gözü ondan işıqlandığı üçün ona möhtacdır: merac gecəsində Məhəmməd Günəşi hilala çevirmişdir.

Birinci nətdə Məhəmməd peyğəmbərin kamil insan olmasını sübuta yetirən digər beyt budur:

امیِ گویا به زبان فصیح/ از الف آدم و میم مسیح[5, 4]

Fəsahətli dillə danışan təhsil görməmiş/Adəmin əlifi Məsihin mimindən

Bildiyimiz kimi ərəb dilində "yazıb-oxumağı" bacarmanyan kəsə "ummi" deyilir. Onun yazıb-oxumaq bacarığı olmasa da, çox fəsahətli dili vardır. Məhəmməd Adəmdən Məsihə qədər olan bütün peyğəmbərlərin arasında ən kamil olan peyğəmbərdir.

İkinci nətdə də Peyğəmbərin mənəvi kamalı təriflənir. Bu nətdə Məhəmmədin döyüşlərin birində dişinin sınmasına da işarə edilir.

کرد جدا سنگ ملامت‌گرش/ گوهری از رهگذر گوهرش[5, 6]

Gərçi məlamət daşı ayırdı, /GövhəryolundanbirGövhəri.

«Məlamət daşı» düşmən tərəfindən atılan daşa işarədir. «Gövhər yolu», «Gövhərin keçid yolu» ağız deməkdir. Müharibələrdən birində Peyğəmbərin dişinin düşmən daşı ilə sındırılması islam aləmində çox məşhurdur. Nizami də bu hadisəni nətdə təsvir etmişdir.

احمد مرسل که خرد خاک اوست/ هر دو جهان بستهٔ فتراک اوست[5, 6]

Göndərilən Əhməd ki, ağıl onun torpağıdır/Hər iki dünya onun yəhərinin tərkinə bağlanıb.

İlk yaranan varlığın nə olması haqqında arif və filosoflar arasında fərqli fikirlər mövcuddur. Bəziləri deyir ki, ilk yaranan varlıq ruh olmuşdur, bəzilərinin fikrincə ilk yaranan varlıq ağıldır, bəziləri də ağılı nura bənzədib ilk yaranan varlığın nur olduğunu qeyd edirlər. Şəhabəddin Sührəvərdi də "Munisul-uşşaq" əsərində ilk yaranan varlığın ağıl olduğunu işarə edərək yazır:

"Bil ki, Sübhan və mütəal Allahın yaratdığı ilk şey bir gövhər idi parlaq, onu ağıl adlandırdı ki, "اول ما خلق الله تعالی العقل" (Allah-Təalanın ilk yaratdığı ağıldır) və bu gövhərə üç xüsusiyyət bəxş etdi: Biri Haqqı tanımaq, biri özünü tanımaq və biri əvvəl olmayıb sonra olanı tanımaq. Allah-Təalanı tanımağa bağlı olan xüsusiyyətdən hüsn yarandı ki, onu "gözəllk" adlandırırlar, özünü tanımağa aid olan xüsusiyyətdən eşq yarandı ki, onu "mehr" adlandırırlar, yox idi, sonra oldu xüsusiyyətindən hüzn yarandı ki, onu "kədər" adlandırırlar. Eyni bulaqdan yaranmış olan hər üçü bir-birinin qardaşıdırlar". [3, 235]

Nizaminin bu beytindən belə nəticə çıxara bilərik ki, Sührəvərdinin qeyd etdiyi ilk varlıq olan ağıl belə Məhəmmədin ayağının torpağıdır. Bu beyt bir daha sübut edir ki, "kamil insan" hər şeydən, o cümlədən ağıldan da üstün olan bir varlıqdır.

Bu nətdə Nizami bədii təşbih və rəmzlərə daha çox yer vermişdir.

«O süfrədən ki, xurma yemisən» misrasında Peyğəmbərin meracı zamanı Allahın qürbündə (yaxınında) olarkən ona açılan süfrə haqqındakı əhvalata işarə edilir. İbn Sinanın «Meracanəmə»sində yazıldığına görə, o, süfrədən Məhəmmədə süd verilmişdir. [4, 106] Nizami isə başqa bir variantı qələmə alır və göstərir ki, Peyğəmbər ona açılan süfrədən «rütəb» - xurma yemişdir.

Orta əsrlər şeirində qəhrəmanların «rütəb» (xurma), «əngəbin» (bal), «süd», «şəkər», «qənd», «nabat» yeməsi və bu səbəbdən ağızın, dodağın süd, bal və s. tamı (çeşidi) verməsi, şərbətin, südün, bal və neyşəkərin kamil ağız və dodağın rəmzi və təşbihi kimi işlədilməsinə dair çoxlu misallar vardır.

«Rütəb»də, «şəhd» və «əngəbin»də həyat, dirilik əlaməti var. Şairlər dodağı «rütəb»ə, «bal»a oxşadanda məqsədləri kamil ağızdan danışmaq və kamil ağızın məhsulu olan sözün, fikrin həyat və dirilik təsiri bağışladığını göstərmək olmuşdur. Ona görə də, Nizami «O süfrədən ki, xurma yemisən» misrasından sonra «Dodağını aç ki, hamı şəkər aparsın» - deyir. Yəni: dodağın sözə gəlsin və sənin sözlərindən insanlar «şəkər»ə-həyata, diriliyə nail olsunlar. Peyğəmbərin sözləri mərifət, bilik və nicat yolunu göstərir. Onun «gecə» kimi qara saçı insana «nicat» verir, onu «qurtuluş gündüzünə» gedən yola yönəldir.

Şeirdə saçın bir mənası da «yol»dur. Peyğəmbərin qara şəvə saçı nur saçır və bu nuru üzündən alır. Saç üzə-işığa, nura gedən yoldur. Onun saçı həq – «nicat» qurtuluş yolunu göstərir.

تاج تو و تخت تو دارد جهان/ تخت زمین آمد و تاج آسمان

سایه نداری تو که نور مهی/ رو تو که خود سایهٔ نوراللهی[5, 7]

Dünya sənin tacü taxtındır, /Taxtınyerdir, tacıngöy.

Kölgəsizsən, sən ki, böyük nursan,/ Get ki, sən özün ilahi nurun kölgəsisən.

Şair birinci beytdə taxtı yerə, tacı göyə oxşatmışdır. Göy mənəvi, ağıl aləminin rəmzi, yeri səcismani aləmin işarəsidir; yerlə göy vəhdət aləmidir. Yerlə göyün - ağıl ilə cismin rəmzi

olan Məhəmməd Peyğəmbərdə iki aləmin vəhdətidir. Bir sözlə, Allahın rəsulu Məhəmməd həm ağıl (göy), həm də kamil varlıq (bədən), aləm rəmzidir. Deməli, bir beytdə təşbihin üç qat rəmzi və mənası verilmişdir. 1-taxt-tac; 2-yer-Göy; 3-cismi-(bədən)-ağıl.

İkinci beytdə Nizami Məhəmmədi «kölgəsiznur» sanır. Burada da Peyğəmbərə iki sifət verilir: 1- «Ayın nuru»; 2-«İlahi nurun kölgəsi».

Peyğəmbərin «Günəş» adlandırılması da ənənəvi rəmzi xarakter daşıyır və Məhəmmədin nurlu üzüdür və Məhəmmədin üzü Günəşdir.

Ümumiyyətlə, Şərq şeirində Gözəl üzün Aya, Günəşə oxşadılmas ıartıq çoxdan ənənə şəklini almışdır. Ancaq Peyğəmbərin üzünün Günəşə bənzədilməsinin mənası bir qədər fərqlidir. Onun üzünün Günəşi əzəliyyət Günəşidir ki, can (ruh) məşriqindən çıxar.

Dördüncü nətdə Nizami Peyğəmbərə bəzi şikayətlərini və arzularını da bildirir: «Əcəmə tərəf gəl, ərəb torpağında oturma» (سوی عجم ران منشین در عرب), «Sikkəni sən vur, ta ki, hakimlər az vursunlar» (سکه تو زن تا امرا کم زنند).

Nizaminin Peyğəmbəri Əcəmə çağırması yenə şairin ictimai-sosial niyyətləri ilə bağlıdır.

M.Cəfər yazır: «Şair islam peyğəmbərini çağırırdı ki, dini «müftə yeyənlərin xəyanətindən, min bər zibilləyənlərin, qarətçilərinin hisarından xilasetsin, yeni bir ədalətli ölkə yaradıb dünyanı təzələsin». (1,63)

Dördüncü nətdə də Peyğəmbərin ruhunun ilk olduğu işarə olunmuşdur:

ما همه جسمیم بیا جان تو باش/ ما همه موریم سلیمان تو باش[5, 8]

Biz hamımız cismik, gəl sən can ol / Biz hamımız qarışqayıq sən Süleyman ol

Beşinci nətdə Nizami Məhəmmədə, onun şəriətinə bağlılığından, bir sıra gözəl insani sifətlərindən, ondan qabaq gəlmiş Adəm, Nuh, Musa və İsadan, Süleyman, İbrahim və Yusifdən məhəbbətlə danışmış və ara-sıra öz həyatına, bəzi ictimai hadisələrə üstüörtülü işarələr etmişdir. Nətin ortalarından başlayaraq şair diqqətini Peyğəmbərə yönəldir:

بی قلم از پوست برون خوان تویی / بی سخن از مغز درون دان تویی[5, 9]

Qələmsiz dəridən zahiri oxuyan sənsən / Sözsüz beyindən daxili bilən sənsən.

Yəni Peyğəmbər zahir və batin aləmlərini hamıdan yaxşı bilir.

زآن بزد انگشت تو بر حرف پای/ تا نشود حرف تو انگشت سای[5, 9]

Ona görə barmağın hərfə ayaq basmadı, / Ki, sənin hərfini barmaq pozmasın.

Bu beytdə Nizami barmağın iştirakı olmadan Peyğəmbərin hərf (həmyazı-hüruf, həm söz) yaratması məharətini göstərmək üçün qəribə bir ifadə və təsvir üsulu yaratmışdır: hərf yazmaq üçün barmağın hərfə ayaq basması fikri dilin poetikasında və hadisənin təsvir üsulunda nadir möcüzələrdəndir. Nizami burada çox sadə bir anlayışı poetik fikrin zirvəsində canlandırmış, ona gözəl və bitkin ifadə üsulu (tərzi) vermişdir. Şair nətlərində Peyğəmbərin fikir və düşüncəsindəki möcüzələri, təkrarsız məharətlərini bədii sözün imkanları ilə nəzərə çatdırır:

حرف همه خلق شد انگشت رس/ حرف تویی زحمت انگشت کس[5, 9]

Bütün varlıqların sözünə barmaq qoyular / Sənin sözünə kimsə barmaq qoya bilməz.

Şair demək istəyir ki, maddi, gerçək hərflər insan əlinin məhsuludur; sənin hərflərin isə ilahi ilhamın təsiri ilə əlin iştirakı olmadan fikrində yaranmışdır.

پِست شکر گشت غبار درت / پسته و عناب شده شکرت[5, 9]

Alçaldı, şəkərə döndü qapının tozu, / Sədəf və gövhərin püstə və xurma oldu.

Bu beytdədə Nizami şeirin ənənəvi poetik vasitələrdən istifadə etmişdir. Birinci misalda göstərilir ki, Peyğəmbərin kamil baxışlarından qapısının tozu «pəst» - alçaqvə «şəkər» oldu. Yəni o, bir baxışla torpağı – tozu gözdən sala bildiyi kimi, onu sevimli, şərəfli də edə bilir.

İkinci misrada şair əvvəlcə «püstə» və «xurma»nı – «sədəf və gövhərə» Peyğəmbərin ağzına və dişinə oxşatmışdır. Burada şair metaforanın poetik qanunlarını nəzərə alaraq oxşadılanı – peyğəmbərin ağız və dişini dilə gətirmədən maraqlı istiarəyardır. Yenə Nizami nətinə qayıdaq:

[5, 9]تازه‌ترین صبح نجاتی مرا/ خاک توام کآب حیاتی مرا

Əntəzə qurtuluş səhərim sənsən, /Sənin torpağınam, dirilik suyusan mənə.

«Sübh», «səhər» şeirdə gecənin qorxu və həyəcanlarından qurtulmaq məqamıdır. Şair ilk misrada Peyğəmbəri bu səbəbdən «qurtuluş səhəri» nə oxşatmışdır.

Göründüyü kimi, Nizami «Məxzənül-əsrar» da qələmə aldığı nətlərdə Peyğəmbərin mükəmməl bədii surətini yaratmış, nadir sənət ecazları və dərin mənalı parlaq təşbihlərin dili ilə onun ilahi hikmət və istedadının əsas cizgilərini vermişdir.

اول بیت ار چه به نام تو بست / نام تو چون قافیه آخر نشست

[5, 9]این ده ویران چو اشارت رسید/ از تو و آدم به عمارت رسید

Beytin əvvəlini sənin adınla bağlansa da,/Sənin adın qafiyə olaraq axırda oturdu

Bu viranə kənd işarə çatanda / Sən və Adəmlə abadlaşdı

Peyğəmbərin ruhunun Adəmdən əvvəl yaradıldığını da bu beytdə onun adının əvvəl işlənməsi ilə izah etmək olar.

«Xosrov və Şirin» əsərinə yazdığı nətdə Nizami «Məxzənül-əsrar»dakı beş nətdə qələmə aldığı hadisə və bənzətmələrin demək olar ki, heç birini işlətməmişdir. Bu isə Nizaminin şeirdə dil-üslub məsələlərinə necə böyük əhəmiyyət verdiyini göstərir. Bədii surət yaratmaqda Nizami heç vaxt təkrara yol verməmişdir. Bu baxımdan «Xosrov və Şirin»dəki nət məzmun və bədii tutumu ilə kamil və orijinal özəlliklərə malikdir.

محمد کآفرینش هست خاکش / هزاران آفرین بر جان پاکش

[6, 5]چراغ‌افروز چشم اهلِ بینِش/طراز کارگاه آفرینش

Məhəmməd ki, yaradılış onun torpağıdır, / Pak canına minlərlə alqış.

Bilik əhlinin gözçırağını alışdıran, / Yaradılış karxanasını bəzəyəndir.

Birinci misrada «yaradılış Məhəmmədin torpağıdır», - deməsilə Nizami bildirmək istəmişdir ki, Məhəmmədlə müqayisədə min-bir yaraşığa bürünmüş füsunkar yaradılıştorpaqdan başqa birşey deyil; varlıq onun ayağının altının torpağıdır, o, varlıqdan çox-çox yüksəkdir. Buna görə onun «Pak canına-ruhuna minlərlə alqışlar olsun».

İkinci beytin ilk misrasında şair bildirmək istəyir ki, Peyğəmbər bəsirət əhlinin, bilik adamlarının sevimlisidir. Nəzər əhli onun ilahi fikirlərini və möcüzələrini dərk edib ona iman gətirmişlər; cahillər onu anlaya bilməzlər.

[6, 5]ز شرع خود نبوّت را نَوی داد / خرد را در پناهش پیروی داد

Öz şəriəti ilə nübuvvətə yenilik verdi/Ağıla onu izləmək pənahını verdi.

Göstərdiyimiz bu beytdə «nübüvvətdə yenilik etmək» Peyğəmbərin yeni din yaratmasına işarədir.

[6, 5]جوانمردی رحیم و تند چون شیر / زبانش گه کلید و گاه شمشیر

Rəhmli bir comərd və şir kimi cəsur, /Dili gah açar, gah da qılıncdır.

Bu beytdə Peyğəmbərin dörd xislətindən ad çəkilir: «Rəhmli comərd, şir kimi cəsur»; «dili gah (sirlərxəzinəsinə) açar, gah da kəsərliqılıncdır. Bu dörd xasiyyət və keyfiyyət kamil insanlara məxsusdur.

گهی دندان به دست سنگ داده / گهی لب بر سر سنگی نهاده

[6, 5]لب و دندانش از آن در سنگ زد چنگ / که دارد لعل و گوهر جای در سنگ

Gah dişini daşın əlinə verib, /Gah dodağını Daş üstə qoyub.

Dodağı və dişi ona görə daşın cənginə düşdü ki, /Ləl ilə gövhərin yeri daşdadır.

Bu beytlərdə yenə düşmənlərin daş atıb Peyğəmbərin dişini sındırıb dodağını yaralamalarına işarə edilmişdir. Ancaq tamamilə yeni poetik ifadələr və mənalarla. Burada göstərilir ki, daşın içindəki ləl və gövhəri çıxarmaq üçün onu sındırdıqları kimi, ləl və gövhər hərisləri bilmədən daşla vurub ləli (Peyğəmbərin dişini) sındırmışlar. Burada yenə kamalsız adamların yaramaz işləri pislənmişdir. Sonuncu beytdə şair hüsni-təlil yaratmışdır.

Nizami «LeylivəMəcnun» əsərində də 109 beytlik bir nət vermişdir. Nət belə başlanır:

ای شاه‌سوار ملک هستی / سلطان خرد به چیره‌دستی[7, 2]

O, varlıq mülkünün şahsuvarı,/ Çeviklikdə ağılnsultanıdır.

Yəni Peyğəmbərin «dünyamülkü» üzərində mənəvi hakimiyyətində ağıl onun hökmündə, itaətində olmuşdur. Başqa mənada ağıl Peyğəmbərin ölkələr üzərindəki mənəvi hakimiyyətini təsdiq etmiş, bəyənmişdir. Onun işi ağıla uyğundur. Nizami həmin nətdə bir neçə dəfə ağılməsələsinə işarə etmişdir. Onun fikrincə, Peyğəmbərin ağlı kamil, bütöv ağıldır, başqalarının ağlına qisdir:

هر عقل که بی تو، عقل برده / هر جان که نه مردهٔ تو، مرده

ای کنیت و نام تو مؤیّد / بوالقاسم وانگهی محمد

عقل ارچه خلیفه‌ای شگرف است / بر لوح سخن تمام حرف است[7, 2]

Hər ağıl ki, sənsizdir, itmişağıldır, /Hər can ki, səninlə diri deyil, ölüdür.

Ey adı və künyəsi təsdiqlənmiş/ Əbulqasim və sonra Məhəmməd

Ağıl böyük xəlifə olsa da, / Söz lövhəsində bütün hərflərdir.

Birinci misrada şair demək istəyir ki, başqa ağıllar Peyğəmbərin ağlından ilham almasalar, özlərini itirərlər. Məhəmmədin (s) ağlı başqalarının ağlına kamal və bütövlük bəxş edir.

Şair daha sonra deyir:

ای شاه مقربان درگاه / بزم تو ورای هفت خرگاه[7, 2]

Ey dərgaha yaxın olanların şahı, / Sənin məqamın yeddi fələkdən yüksəkdədir.

دوران که فرس نهادهٔ تست / با هفت فرس پیادهٔ تست[7, 2]

Dövran ki, sənin dalınca at salıb,/ Yeddi atı ilə sənin piyadandır.

Nizami dini dastanlara əsaslanaraq bildirmək istəyir ki, Peyğəmbər varlığı kamil ağıl sahibidir. Ona görə, onun mənəvi məqamı yerdən və fələklərdən ucadır. Onun ucalığa qalxması (meracı) da bununla bağlıdır. Peyğəmbərin böyüklüyünə dəlil olaraq yer-göy, fələklər onu özlərinə mehrab, səcdəgah bilirlər.

«Həftpeykər»də verilmiş nət məzmunca əvvəlki nətlərə bir qədər yaxındır. Burada da Peyğəmbərin xislət və əməlləri təriflənir. Ancaq bu nətdə fikirlər daha çox sadə dildə nəzərə çatdırılır. Dərinmənalı təşbih və istiarələrə burada demək olarki, rast gəlinmir, Peyğəmbər haqqında bəzi fikirlər nəzərə alınmazsa bu nətdə bir süstlük özünü göstərir. Görünür, nətin mətni sonrakı əsrlərdə ciddi düzəlişlərə və dəyişikliyə məruz qalmışdır.

Şair rəsuli-əkrəmin peyğəmbərliyi, gözəl sifətləri, mənəvi kamalı və fitri istedadı barədə ən kamil fikirlərini ilk üç əsərində vermişdir. Bu nətlər təkcə məzmun cəhətdən deyil, bədii-poetik baxımından da kamil əsərlərdir. Rəngarəng kinayə, təşbih və istiarələrə bu nətlərdə geniş yer verilmişdir. Sənət və məzmun burada vəhdət təşkil edir. Peyğəmbərin ən kamil surətlərini də ilk üç əsərin nətlərində görməkolar.

Şairin «Şərəfnamə»də qələmə aldığı nətdən bir neçə beyt:

ستون خرد مسند پشت او / مه انگشت‌کش گشته ز انگشت او[9, 3]

Ağlın sütunu onun söykənəcəyidir, / Onun barmağı ilə Ay barmaqla göstərilir.

محیطی چه گویم چو بارنده میغ / به یک دست گوهر به یک دست تیغ[9, 3]

Yağan bulud kimi bir mühit, / Bir əlində gövhər, bir əlində qılınc.

به گوهر جهان را بیاراسته / به تیغ از جهان داد دین خواسته[9, 3]

Gövhərlə dünyanı bəzədi, / Qılıncla dünyadan ədalət və din istədi.

Birinci misrada «Ağlın sütunu onun arxa yastığıdır» cümləsində şair yenə şeir dililə bildirirki, Peyğəmbər bütün işlərdə ağıla əsaslanmışdır. Nizami əvvəlki əsərlərində də buna bənzər fikirlər söyləmişdir.

Onun möcüzələrindən biri şəhadət barmağı ilə Ayı iki bölməsidir. Bu möcüzədən sonra hamı Ayı barmaqla göstərmişdir.

Peyğəmbər «yağan bulud mühiti kimidir», yəni yağan bulud torpağa dirilik, həyat və nemət bəxş etdiyi kimi, Peyğəmbər də öz fikirləri, göydən endirdiyi Quran ilə bəşəriyyətə sağlam düşüncə, mənəvi dirilik və səadət gətirmişdir.

O, bir əlindəki gövhərlə dünyanı bəzəmiş, o biri əlindəki qılıncla yerdə ədalət və din yaratmışdır. Şairin fikrincə qılınc və gövhər yalnız bu iki müqəddəs işə xidmət etməlidir.

«İqbalnamə»də verdiyi nətdə Peyğəmbər haqqında əvvəlki əsərlərində söyləmədiyi yeni fikirlərdemişdir:

فرشته‌نمودار ایزدشناس / که مارا بدو هست ز ایزد سپاس

رساننده ما را به خرم‌بهشت / رهاننده از دوزخ تنگ زشت[10, 3]

Mələk görkəmli, Allah tanıyan, /Biz onunla Allaha şükr edirik

O, bizi xürrəm behiştə çatdırandır,/ Dar, çirkin duzəxdən bizi xilas edəndir.

Bu beytdə Peyğəmbərin insansevərliyinə, insan həyatının gözəlliyi və rahatlığı uğrunda çalışmasına işarələr vardır.

Şair Peyğəmbəri kamil təbib kimi göstərərək dərd və yaradan əzab çəkmiş məzlumlara camından içirtdiyi bir qətrə dərmanla onlara ömürlük sağlamlıq bəxş etməsindən məhəbbətlə danışmışdır.

"Kamil insanın" "Məhəmmədiyyə həqiqəti" ilə eyni olduğunu qeyd edərək bütün yaranışın ona görə olduğunu qeyd edir və onu bütün varlıqların yaranışının vasitəsi bilir:

هر چه ز بیگانه و خیل تواند / جمله در این خانه طفیل تواند[5, 9]

Biganə və qoşundan hər nə sənindir/ Hamı bu evdə sənə bağlıdır

به معنی، کیمیای خاک آدم /به صورت توتیای چشم عالم[6, 5]

Mənada Adəm torpağının kimyasıdır, / Surətdə aləm gözünün tutiyasıdır.

Ariflər bu fikirdədirlər ki, "kamil insan" aləmin ruhudur və aləmdə hər bir şeyə də qadirdir. Bu fikrə Muyiddin İbn Ərəbi və Camidə də rast gəlmək mümkündür. Nizami Gəncəvi də digərləri kimi Məhəmməd peyğəmbəri bütün dövrlərin "kamil insanı" sayır.

خط فلک خطه میدان توست /گوی زمین در خم چوگان توست[5, 9]

Fələyin xətti sənin meydanının əhatəsidir / Yerin topu sənin çovqanının əyrisindədir.

Fələyin xəttindən məqsəd "mim" hərfi, meydandakı işi peyğəmbərlik missiyasıdır. Başqa sözlə Əhməd sözünün yazılışında "Mim" olduğu kimi topa oxşayan yer (yəni Əhməddəki mim hərfi) Əhmədin çövqanının əyrisindədir. Əhməd sözündə "mim" hərfi olduğu kimi dünya da peyğəmbərlik zatında qərq olmuşdur. Digər tərəfdən Peyğəmbərin dünyadakı qüdrəti onun kamilliyinə nişanədir. Yalnız kamil insanın dünya və dünya işlərində qüdrəti ola bilər. Ona görə də Nizami "Məxzənül-əsrar"ın beşinci nətində belə yazır:

تا ز عدم گرد فنا برنخاست/ می‌تک و می‌تاز که میدان تراست[5, 9]

Yoxluqdan fəna tozu qalxmadı/Çap və qaç ki, meydan sənindir

Bu beytlərdən belə məna alınır ki, "kamil insanın" ruhu dünyada sabitdir və həmin kamil insan da peyğəmbərdir ki, onun varlığının sözündən başqa bütün sözlərdə nöqsan var.

حرف همه خلق شد انگشت رس/ حرف تویی زحمت انگشت کس[5, 9]

Bütün varlıqların sözünə barmaq qoyular/Sənin sözünə kimsə barmaq qoya bilməz.

Nizami Gəncəvinin əsərlərindən aydın olur ki, onun fikrinə görə islam peyğəmbəri həmin "kamil insandır" və onun ruhu aləmin bütün cismlərinə üfürülmüşdür.

با چنان جان که هر دمش مددی‌ست / از زمین تا به آسمان جسدی‌ست

آن جسد را حیات ازین جان است / همه تختند و او سلیمان است[8, 2]

Belə canla ki, hər nəfəsi köməkdir/Yerdən göyə kimi cismidir

O cismə həyat bu candandır/Hamı taxtdırlar və o Süleymandır

Həkim Nizaminin əsərlərində "Məhəmmədiyyə həqiqəti" olan kamil insan müxtəlif təmsillərlə qeyd olunmuşdur ki, onlardan bəzisinə işarə edək:

Nizaminin əsərlərində istifadə etdiyi təmsillərdən biri cism üçün can təmsilidir.

ما همه جسمیم بیا جان تو باش/ ما همه موریم سلیمان تو باش[5, 8]

Biz hamımız cismik gəl can sən ol/Biz hamımız qarışqayıq, sən Süleyman ol.

Başqa bir yerdə peyğəmbəri taxtı yer, tacı asiman olan padşah adlandırır:

تاج تو و تخت تو دارد جهان/ تخت زمین آمد و تاج آسمان[5, 7]

Dünyada sənin tacın və taxtın var/Taxtın yerdir, tacın asiman.

Kamil insan fələklərin onun ətrafında dövr etdiyi qütbdür: Nizaminin peyğəmbərin varlığı üçün istifadə etdiyi digər təmsil qütb və mərkəz təmsilidir.

بر همه سر خیل و سر خیر بود/ قطب گران‌سنگ سبک‌سیر بود[5, 4]

Bütün dəstələrin, bütün xeyirlərin başıdır/İtiayaqlı ağır bir qütb idi

Nizami "Adəmin yaranışı" dastanında onu aynaya bənzədərək yazır:

شاهدِ نوفتنه‌ی افلاکیان/ نوخطِ فرد آینه‌ی خاکیان[5, 20]

Fələkdəkilərin fitnəsinin yeni şahidi/Torpaqdakıların aynasının yeni xətt fərdi

Nizami qeyd etdiyimiz təmsillərdən savayı Peyğəmbər üçün nur, parıltı, şam, çıraq, günəş, ay təmsillərindən də istifadə etmişdir. O bütün varlıqları o həzrətin nurundan bilərək yazır:

امی و امهات را مایه/فرش را نور و عرش را سایه[8, 2]

Ummi və ummilərin mayesi/ Fərşin nuru, ərşin sayəsi (kölgəsi)

Nəticə: Nizami Gəncəvi elmi irfanın formalaşması dövründən əvvəl yaşasa da, bu elmin məfhumlarını kifayət qədər kifayət qədər yaxşı bildiyindən əsərlərində onunla bağlı olan məfhumlar da üstünlük təşkil edir. Belə ki, başlıca olaraq insanın varlığı məsələsinin irfani baxımdan hərtərəfli araşdırılması buna bir daha sübut ola bilər. Araşdırmadan belə nəticə çıxarmaq olar ki, Nizaminin fikrincə dünyanın yaranışının əsas məqsədi kamil insandır. "Kamil insan"ın ruhu aləmin bütün varlıqlarının cismindədir. "Kamil insan" təkcə öz dövrünün deyil, bütün dövrlərə aid olan bir obrazdır. "Kamil insan"ı başqa sözlə "Məhəmmədiyyə həqiqəti" də saymaq olar. "Kamil insan" Allahın yer üzündə təcllasıdır.

ƏDƏBİYYAT


1. Məmməd Cəfər. Nizaminin fikir dünyası, Bakı, 1982
2. دهخدا علی اکبر ، لغت نامه، شماره حرف ن، تهران، 1248، ص. 618
3. سجادی، سید جعفر. شرح رسائل فارسی سهروردی/ سید جعفر سجادی. – تهران: حوزه هنری، – 1376. – 283 ص.
4. سینا، ابو علی. معراجنامه نجیب مایل هروی / ابو علی سینا. – مشهد: بنیاد پژوهشهای اسلامی آستان قدس رضوی، –1366. – 212 ص.
5. https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar
6. https://ganjoor.net/nezami/5ganj/khosro-shirin
7. https://ganjoor.net/nezami/5ganj/leyli-majnoon
8. https://ganjoor.net/nezami/5ganj/7peykar
9. https://ganjoor.net/nezami/5ganj/sharafname
10. https://ganjoor.net/nezami/5ganj/kheradname

***Ильхама МАМЕДОВА***
***Доктор философии, доцент***

## ОБРАЗ СОВЕРШЕННОГО ЧЕЛОВЕКА В «ХАМСА» НИЗАМИ
***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами, Хамса, маснави, нат, пророк, Мухаммад

«Хамса» Низами Гянджеви является своего рода большой энциклопедией в области знаний о человеке. В ее *маснави* весьма насыщенно и интересно представлены представления о рождении человека, его уходе из мира и даже, о последующей жизни. Во всех *маснави* гениального поэта мы находим упоминания о пророке Мухаммаде, в качестве описаний его образа как наиболее совершенного человека. И это – не случайно.Потому что пророк Мухаммад, согласно произведениям Низами, является образцом совершенного человека, подаренного человечеству. Помимо *бейт*ов о пророке, в произведениях поэта можно найти *мирадж*и и *нат*ы, посвященные исключительно личным качествам пророка. Причину, по которой Низами Гянджеви посвятил пророку Мухаммаду большое количество стихотворений, можно найти на основании рассмотрения концепции «совершенного человека».

***İlhama MAMMADOVA***
***Doctor of Philosophy in Philology***

## THE IMAGE OF PERFECT HUMAN IN NIZAMI’S KHAMSA
***SUMMARY***

*Keywords:* Nizami, Khamsa, mathnawi, na’t, Prophet, Muhammad

Encompassing advanced and interesting thoughts on human life beginning from birth up until death and even afterlife, NizamiGanjavi’sKhamsa is an encyclopedia in the sphere of social sciences. In all *mathnawis* written by Nizami, the name of Muhammad can be found as the image of the perfect human, which is not accidental, as Prophet Muhammad is the example of the perfect human bestowed upon humanity, according to Nizami’s works. Together with couplets related Prophet, his works include *na’t* (poems dedicated to the Prophet)and *mi’raj* (the night journey) solely dedicated to Muhammad. The reason of dedication of so many poems to the Prophet by Nizami can be found through researches on the concept of perfect human.

***Daxil oldu: 23.11.2024-cü il***